

Çingiz ABDULLAYEV

*Yubiley, adətən, uğurlarla qeyd edilir. Dostum Kamal Abdullanın uğurları lazım olduğundan da çoxdur. O, böyük alim, tanınmış ictimai xadim, məşhur və maraqlı yazıçıdır. Əsərləri dünyanın əksər ölkələrində çap olunub. Hətta bir dəfə o mənə özünəməxsus bir oyun təklif etdi. Yeni bir ölkəyə gələndə o, ilk növbədə, burada Çingiz Abdullayevin kitablarının çap olunub-olunmaması ilə maraqlanırdı. Biz heç də qohum deyilik, amma çox yaxşıdır ki, Abdullayevlərin soyadları Azərbaycan yazıçıları kimi çəkilir. Onun haqqını vermək lazımdır. Kitabları bir çox dillərə tərcümə edilib. Bir pedaqoq olaraq, gənc alimlərin bütöv bir pleyadasını yetişdirib. On dörd ilə yaxın rəhbərlik etdiyi və böyük islahatlar apardığı Slavyan Universitetini dəyişdirməyi və gücləndirməyi bacarıb. Hazırda o, yenə ali təhsil müəssisəsinə rəhbərlik edir və mən şübhə etmirəm ki, o, burada da zirvədə olacaq. Biz təxminən qırx ildir ki, tanışıq və dostuq. Bu, kifayət qədər böyük müddətdir. Səksəninci illərin sonlarında biz Danimarkada bir ayı birlikdə keçirdik. Deyirlər ki, insanı yolda tanıyarlar. Bu illər ərzində mən əmin oldum ki, Kamal təkcə yaxşı dost deyil, eyni zamanda əsl vətənpərvərdir, ağıllı, anlayışlı, məlumatlı, mütaliəlidir. O öz mövqeyini açıq bildirməkdən qorxmur, avtoritetlərdən çəkinmir, öz nəzər və düşüncələrini cəsarətlə ifadə edir. Bu günlərdə ona sağlıq arzulamaq lazımdır. İndi bu virus səbəbindən biz hamımız tədricən risk qrupuna keçirik. Lakin biz elə həmişə onunla bu risk qrupunda olmuşuq. Açıq tənqid, dürüst mövqe, saxtakarlığı bacarmamaq çoxunun xoşuna gəlmir. Olmadığı kimi görünmək. Mənim dostum Kamal məhz belədir. Bacarmayandır. Olmadığı kimi davranmağı, hiyləni, kiminsə xoşuna gəlməyi istəməyəndir. Əminəm ki, qarşıda onun hələ çoxlu yazılacaq kitabları var. Pedaqoji fəaliyyətində böyük uğurlar. Sonda isə bir yaddaqalan epizodla bitirmək istəyirəm. Bir neçə il əvvəl bizi bir qrup tələbə ilə birlikdə Moskvaya göndərdilər. Oliqarxlardan biri bizim ikimizə qonaqlama xərcləri üçün kifayət qədər böyük məbləğdə pul verdi. Mən dərhal qərara aldım ki, pulu uşaqlar üçün xərcləyərəm. Kamal başqa cür qərar verdi. Moskvaya çatan kimi qrup rəhbərini çağırdı və son qəpiyinə qədər pulu ona verdi. "Uşaqlara payla, ilk dəfədir Moskvadadırlar, qoy özlərinə xərcləsinlər" deyə təklif etdi. Bax Azərbaycanda belə rektorlar var. Mənim üçün o, tələbələrinə kömək edən, onların öyrənmək meylini təşviq edən, heyranlıqla xatırladığımız Rektorlarla eyni koqortadadır. Kamal Abdulla da o cürdür. Onun bir çox fəxri adları var. Xalq yazıçısı və akademik, bir çox universitetlərin fəxri doktoru, Birinci dərəcəli Dövlət müşaviri. Xeyli sadalamaq olar. Amma bütün bu rütbə və reqaliyalara baxmayaraq, o, gözəl dost və bütün tələbələrə açıq olan pedaqoq olaraq qalır. Və mən xoşbəxtəm ki, belə bir əlamətdar gündə onu təbrik edə bilirəm.*